# Rayon İcra Hakimiyyətində növbəti şura iclası keçirilmişdir

28 iyun 2024-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətində növbəti şura iclası keçirilmişdir. Şəhər, qəsəbə və kənd inzibati ərazi nümayəndələri, bələdiyyə sədrlərinin də iştirak etdiyi tədbirdə qanunsuz tikililər, "Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları" və "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı Fərmanların icrası ilə bağlı 2024-cü ilin I yarımilində görülmüş işlər barədə danışılmış, mövcud problemlər və qarşıda duran məsələlər müzakirə edilmiş, müvafiq tapşırıq və tövsiyələr verilmişdir.





# Vətəndaş qəbulu



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. İrəli sürülən təkliflərin, qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideynləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Şəhid ailələri və müharibə əlilləri ziyarət edilmişdir



Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndələri tərəfindən Vətən müharibəsində şəhadətə yüksəlmiş şəhidlərin ailələri və müharibə əlilləri Qurban bayramı münasibətilə evlərində ziyarət edilmişdir. Ziyarətçilər şəhidlərimizin əziz xatirəsinin xalqımız tərəfindən hər zaman əziz tutulduğunu, şəhid ailələrinin və müharibə əlillərinin daim dövlətimizin diqqət mərkəzində saxlanıldığını qeyd edərək, bayram münasibətilə onları təbrik etmiş və onlara bayram sovqatı çatdırmışlar. Şəhidlərin ailə üzvləri və müharibə əlilləri onlara göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Ordu quruculuğu prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması

1993-cü ilin yayında Ümummilli Lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra 1993-cü ilin sonlarından başlayaraq Azərbaycanda sistemli ordu quruluculuğunun təməli formalaşdırılmağa başlanıldı. Vətəndaş qarşıdurmalarından xilas olmuş ölkənin əsas prioriteti məhz ordunun möhkəmləndirilməsi probleminin həlli ilə bağlı idi. Ordu quruculuğunun təmin edilməsi bu dövrdə mühüm hadisə idi. Mərkəzləşmiş ordu quruculuğu mərhələsi həm də ixtisaslı cavuş, zabit heyətinin hazırlığını tələb edirdi. Bu dövrdə xeyli sayda zabit heyətinin qardaş Türkiyədə təcrübə keçməsi yeni hərbi strateji maraqları artırmaqla yanaşı NATO standartlarının da hərbi heyətimizdə tətbiqini sürətləndirdi. Ölkənin siyasi sisteminin sabitliyi və suverenlyin möhkəmlənməsi prosesi birbaşa ordu-xalq birliyi ideyasının möhkəmlənməsini tələb edirdi.

Uzunmüddətli atəşkəs əldə edildikdən sonra, Azərbaycanda bir sıra islahatlar aparılmağa başlandı. İlk öncə orduda Azərbaycan dilinin tətbiq olunması prosesi həyata keçirildi. Belə ki, digər sahələrdə olduğu kimi, orduda da Azərbaycan dilinin bərqərar olunması vacib idi. Ordu nizamnamələri yenidən Azərbaycan dilində yazıldı və tətbiq olunmağa başladı. Milli hərbi geyim və hərbi rəmzlər yarandı. Azərbaycan ordusunun sovet hərbi sistemini dəyişib müasir NATO standartlarına uyğunlaşdırmaq lazım idi. Lakin bu prosesin həyata keçirilməsi olduqca böyük vəsait və uzun müddət tələb edirdi. Digər tərəfdən, Azərbaycanın müharibə şəraitində olması bu sistemin birdəfəlik dəyişikliyinin çox böyük bir risk olduğunu göz önünə çıxarırdı. Ümummilli lider Heydər Əliyev öz böyük sərkərdəlik qabiliyyətini nümayiş etdirərək, bu prosesin tədricən həyata keçirilməsini qərara aldı. Öz ordusunun hazırlıq səviyyəsinə görə, dünyada qabaqcıl dövlətlərdən hesab olunan, NATO-nun tam üzvü olan Türkiyə ilə geniş hərbi əməkdaşlığa başlandı. Bu hərbi əməkdaşlıq özünü hərbi təhsil sahəsində daha qabarıq göstərir. Belə ki, Azərbaycan Ali Hərbi Məktəbinin 1997-ci ildən NATO hərbi sisteminə keçidi bunun çox bariz nümunəsidir. Artıq yeni sistemlə fəaliyyət göstərən bu məktəbin yüksək döyüş hazırlıqlı ali təhsilli məzunları Azərbaycan ordusunun sıralarında zabit heyətinin müəyyən bir qismini təşkil edir. Bundan əlavə bir çox gənc, Türkiyədə və Azərbaycanın hərbi əməkdaşlıq etdiyi dövlətlərdə təhsil alır və təcrübə toplayır. Eyni zamanda, xarici dövlətlərlə aparılan hərbi əməkdaşlığın nəticəsində ordumuzun silah ehtiyatı daimi müasirləşdirilir və gücləndirilir. 1991-1993-cü illərdəki uğursuzluqlar ordudan yayınmaq hallarını xeyli artırmışdır. Amma Ümummilli liderin hərbi sahədəki qətiyyətli və düzgün siyasəti bu problemi tamamilə aradan qaldırdı. Hərbi xidmətin bir il altı ay, təhsil alan gənclər üçün isə 1 illik olması bu sahədə çox əhəmiyyətli bir addımdır. Bundan əlavə bu addım minlərlə azərbaycanlının hərbi təlim görərək ehtiyata buraxılmasına səbəb oldu.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəldildi, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirildi, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Bu düşünülmüş və uzaqgörən siyasətin məntiqi nəticəsi kimi 27 sentyabr 2020-ci ildə başlayan II Qarabağ - Vətən Müharibəsini 44 gün ərzində möhtəşəm qələbə ilə başa vurduq. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi, xalqın dəstəyi ilə 30 illik işğala son qoydu.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**

# Uğura gedən yol - uğuru necə əldə etmək olar?

Dünyaya insan gəlir; ulu yaradanın imtahanı üçün. Kimi bunu aydın şəkildə dərk edir, anlayır, kimi isə fərqinə varmadan yoluna davam edir. Bir sözlə bəşər övladı daim mübarizə aparır, yaşamaq, yaratmaq, uğur əldə etmək amalı ilə neçə-neçə yollara baş vurur. Elə bir yol axtarır ki, bu yol yalnız və yalnız uğura aparsın. Bəli! Uğur qazanmaq üçün mübarizə aparmalıyıq. Çünki, insanı mübarizələr bərkidir. Cinsindən, vəzifəsindən asılı olmayaraq hər bir insan uğur qazanmaq üçün mübarizə aparmalı, əzm və fədakarlıqla çalışmalıdır. Həyat mübarizə meydanıdır. Bu meydandan uğura başlanan yolu düzgün seçib istiqamətlənmək hər birimizdən peşəkarlıq tələb edir. Ona görə çalışmaq lazımdır ki, yolu düzgün seçəsən, yalnış istiqamətə yönəlməyəsən. Ümumiyyətlə fərdi olaraq bir suala cavab axtarırıq; Uğur əldə etmək üçün nə lazımdır? Mən deyərdim ki, ilk növbədə sözün əsl mənasında yaxşı insan olmaq lazımdır. Sözündə, əməlində tutduğu vəzifəsində, əgər sadə bir vətəndaşdırsa elə cəmiyyət içərisində əsl insan olmalı, vətənini, xalqını, elini-obasını sevməlidir.

Vətən sevgisi təmiz, saf hissdir. Bu ülvi hisslər ümumilikdə birləşsə əsl vətəndaş olaraq bizi bu yolun yolçusu edər. Odur ki, "şəxsi mənafe,şəxsi mənfəət" simvolizə edən xarakterdən uzaq olasan. Çünki, tamamilə öz taleyini, həyatını, mənfəət və qazancını əsas tutan, bir sözlə şəxsi ambisiyaları güdən insanlardan cəmiyyət də bütöv bir xalq da nifrət edər. Gərək nəbzin xalqla vursun, ürəyin xalq sevgisi ilə döyünsün. Əgər bütün sadalanan hisslər səndə cəmlənibsə həqiqətən də sən uğur əldə edə bilərsən. Çünki birinci növbədə xalq sevgisi, cəmiyyət ehtiramı, qarşılıqlı hörmət səni daha da ucaldar, özünə qarşı əminlik hissini artırar, sözün əsl mənasında özünə güvənlik hissini... Və sən də qarşına qoyduğun hədəfə doğru düzgün addımlayasan. Özünə əminlik hissin artdıqca yaşamaq, həyat eşqin yüksələr. Ətraf aləmin, cəmiyyətin, xalqın sınağından uğurla keçmək gələcəyin uğurlu yollarında zəfərlə inamla addımlamağa güc verər. O gücü ilk olaraq əvvəlcədən qazanmaq hər insana nəsib olmaz. Ona görə də həyatımızı elə yaşamalı, elə qurmalıyıq ki, "kaş", "görək", "necə olacaq?" ifadələri ilə beynimizi yormayaq. Bəli! Uğur qazanmaq üçün əsas ilk növbədə yaxşı insan olmaq lazımdır. Yaxşı insanlara hər zaman ehtiyac var. Yaxşı insanlar hər zaman sevilir, seçilir. Gəlin sınaq üçün gəldiyimiz bu dünyada elə yaşayaq ki, biz bu həyatda olmasaq belə hər zaman yerimiz görünsün, sözümüz söylənilsin, əməllərimiz şirin xatirələrin bitib-tükənməyən söz ümmanına çevrilsin. Bir cəmiyyətin sevgi və hörmətini qazanıb əzmkar, iradəli olaq. Demək uğur əldə etmək üçün birinci xalq, cəmiyyət sevgisini qazanmaqla özünəəminlik hissini artırmaq, ikinci əsas olaraq tutduğun mövqedən, istiqamətdən, vəzifə və peşədən asılı olmayaraq əzm və fədakarlıq göstərmək, hədəfə çatmaq polad iradəyə sahib olmaq lazımdır. Qarşına nə cür manea çıxırsa-cıxsın ruhdan düşməməklə uğur yollarında hər bir çətinliyə sinə gərib,gələcək uğurları əldə etməyə, bir yol başlamağa ən böyük cəhd göstərmək. Demək, uğura gedən yol zəhmətdən, vətənə, xalqa sevgidən, saf ülvi sevginin təməlindən, xeyirxahlıqdan başlanır. Gəlin çalışaq ki, bütün bu hisslər ruhumuzda, cismimizdə təşəkkül tapsın ki, istədiyimiz uca zirvələri, uğura gedən yolları fəth edək.

**İlhamə SEYİDOVA,**
**Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin elmi-işçisi.**